# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 27.175,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 1.630,5 min manata qarşı 1.088,7 min manat vəsait toplanaraq rüblük yığım planı 66,8 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 53,2 %, dövlət müəssisələri üzrə 16,0 %, ticarət xidməti üzrə 52,4 %, özəl sənaye üzrə 68,1 %, əhali qrupu üzrə isə 78,2 % olmuşdur.

Qəbələ Sukanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin küçələrində aparılan abadlıq işləri ilə əlaqədar mövcud su təchizatı və kanalizasiya xətlərində müxtəlif diametrli borular dəyişdirilmiş, təmir-bərpa işləri aparılmışdır. Hərbi şəhərcikdə bir ədəd artezianın nasosu dəyişdirilmiş, İsmət Qayıbov və Seyid Əzim Şirvani küçələrində 1.420 p/m su xətti yenilənmiş, 40-a yaxın abonentin su xətləri bərpa edilmişdir. İsmayıl bəy küçəsində plastik borularla 300 p/m su xətti çəkilmiş, 30-a yaxın abonentin su xətti təmir olunmuşdur. Beş mərtəbəli yaşayış binalarının zirzəmi hissəsində təmir-bərpa işləri aparılmış və su axıntısının qarşısı alınmışdır. Rüb ərzində 68,3 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 85,2 %-i abonentlərdən yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 89,5 %, büdcə üzrə 89,6 %, kommersiya və digər təşkilatlar üzrə 60,0 % təşkil etmişdir.

Qəbələ rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 2015-ci ilin I rübündə 144,1 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı I rüb ərzində 287,0 min manat tarif gəliri proqnozuna qarşı 288,4 min manat gəlir əldə etmiş, proqnoz tapşırığı 100,5% əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 %, yəni 7,4 min manat artıq gəlir əldə edilmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin montaj tutumu 11980 nömrəyə çatdırılmışdır. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Rüb ərzində Qəbələ şəhərində abadlıq işlərinin görülməsi ilə əlaqədar Musabəyov küçəsində mövcud yerüstü xətlərin yeraltı vəziyyətə gətirilməsi işləri davam etdirilir. Nic qəsəbəsində xətt təsərrüfatının təmiri işləri davam etdirilir. Uludaş, Yemişanlı kəndlərində təmir işləri başa çatmışdır. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı hazırda 4148 nəfərə çatmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ filialı 2015-ci ilin I rübündə 57,7 min manata qarşı 62,3 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 108 % yerinə yetirmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,4 min manat çox olmuşdur.

Qəbələ rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hazırda 3.520 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 252,1 min manat təşkil edir. Rüb ərzində 25 nəfər 18 yaşadək əlil uşağa, 31 nəfər I, II və III qrup əlillərə, 4 ailənin 11 uşağına ailə başçısını itirməyə, 5 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 288 ailənin 310 uşağına uşağın anadan olmasına görə, 10 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 259 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, həmin ailələrdən 1 yaşadək uşağı olan 36 ailənin 37 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 817 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ rayon şöbəsi tərəfindən 2015-ci ilin I rübünün yekununa görə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 1.965,1 min manata qarşı 1.772,6 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 90,2 % əməl olunmuşdur. Rüb ərzində 340 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 10-u hüquqi, 241-i fiziki şəxs, 89-u isə torpaq mülkiyyətçisi olmuşdur. 1 aprel 2015-ci il vəziyyətinə şöbə üzrə 11.545 pensiya işi üzrə 11.859 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Rüb ərzində pensiyaçılara ümumilikdə 5.350,3 min manat pensiya ödənilmiş, orta aylıq pensiya məbləği 1.772,5 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 153 manat 53 qəpik təşkil etmişdir.

Qəbələ rayon Məşğulluq Mərkəzində 2015-ci ilin ötən dövrü ərzində işsiz və işaxtaran kimi 245 nəfər vətəndaş qeydiyata alınmış, onların 1 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 225 nəfərdən 1 nəfəri kvota üzrə olmaqla, 122 nəfəri münasib işlə təmin edilmişdir. 21 nəfərə 2,9 min manat işsizlik müavinəti verilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 110 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 185,6 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 54 kub/metr qabion bəndi vurulmuş, 602 kub/metr daş beton bəndi cari təmir edilmişdir.

2015-ci ilin I rübündə Qəbələ şəhər 5 saylı tam orta məktəbinin, "Tufandağ" dağ-xizək yay-qış istirahət kompleksinə daxil olan Xizəkçilik mərkəzinin və Tufandağ otelinin, YAP Qəbələ rayon şöbəsinin inzibati binalarında tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

Hazırda Qəbələ Futbol Akademiyası və stadionlar kompleksi, Dəmiraparan çayı üzərində 10 aşırımlı 324 p.metr uzunluqda dəmir-beton körpü, "Aquapark" istirahət kompleksi, "Qolf klub" kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin inzibati binası, "Qrand siti" otel binası, rayon məhkəməsinin və rayon prokurorluğunun inzibati binaları, Savalan kəndindəki "Rafting Mərkəzi", "Laza" sərhəd zastavası, Nohur gölü ərazisində "Oteller Kompleksi", Gömrük Akademiyası, "Asan xidməti"n Qəbələ Rayon Filialı, atçılıq mərkəzi, kənd təsərrüfatı idarəsinin inzibati binası, Qəbələ şəhərində 100 yerlik uşaq bağçası, Qəmərvan çayı üzərində 1 aşırımlı 36 p.metrlik dəmirbeton körpü, Dəmiraparan çayının sağ sahilində 1350 p.metr dəmirbeton bənd obyektlərində tikinti quraşdırma işləri davam etdirilir.

Məlumat üçün bildirirəm ki, 2015-cü ildə Qəbələ Peşə Məktəbinin yeni binasının, rayon mərkəzi xəstəxanası kompleksinin, Yengicə su anbarının, turizm akademiyasının, Qəbələ şəhərində 1 ədəd 120 yerlik uşaq bağçası binasının tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

Hazırda Qəbələ şəhərinin Seyid Əzim Şirvani, İsmət Qayıbov və İbrahim Musabəyov küçələrində abadlıq işləri davam etdirilir.

Hörmətli yığıncaq iştirakçıları!

Rayon təhsil şöbəsi 2014-2015-ci dərs ilinin birinci yarısını yüksək nəticələrlə başa vurmuş, ümumtəhsil məktəbləri üzrə təhsil sahəsində müvəffəqiyyət faizi 98,4, keyfiyyət göstəricisi 60,1% olmuşdur. Məktəblərdən Şəhər 1, 2, 3, 4 və 5-saylı, Vəndam qəsəbə 1,2 saylı, Həmzəli, Bunud, Zarağan 2 saylı, Nohurqışlaq, Tüntül, Daşca, Aydınqışlaq, Hacıalılı kənd tam orta məktəblərində təlim-tərbiyə işlərinin keyfiyyəti daha yüksək olmuşdur.

Uşaqların I sinfə qəbulu qaydaları haqqında təlimatda dəyişiklik edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin 6 yanvar 2015-ci il tarixli 3/1 №-li kollegiya qərarının tətbiqi ilə bağlı məktəblərdə xeyli hazırlıq işləri görülmüş və 1 fevral 2015-ci il tarixdən I-siniflərə şagird qəbuluna başlanılmışdır.

Bütün məktəblərdə ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə inşa yazı müsabiqəsi keçirilmişdir.

Qəbələ Rayon Mədəniyyət və Turizm şöbəsinin strukturunda rayon mədəniyyət mərkəzi və onun 35 filialı, Heydər Əliyev Mərkəzi, incəsənət məktəbi, dövlət rəsm qalareyası, tarix-diyarşünaslıq muzeyi, mərkəzləşdirilmiş kitabxana sistemi və onun 26 filialı, tarixbədii qoruğu fəaliyyət göstərir.

2015-ci ilin birinci rübündə mədəni-maarif müəssisələrində Qanlı 20 yanvar faciəsinin iyirmi beş illiyi münasibətilə anım mərasimləri keçirilmiş, foto-stendlər və guşələr təşkil edilmişdir. Qəbələ Dövlət Rəsm Qalareyasında təsviri incəsənət studiyası şagirdlərinin rəsm əsərlərindən ibarət fotosərgi təşkil olunmuşdur. Qəbələ Mədəniyyət Mərkəzində isə ədəbi-bədii kompozisiya və "Bakıfilm" kinostudiyasının ekranlaşdırdığı, rejissor Vahid Mustafayevin "Qanlı Yanvar" filmi nümayiş etdirilmişdir.

Fevralın 2-də "Ümumrespublika Gənclər Günü" münasibətilə Qəbələ Mədəniyyət Mərkəzində dəyirmi masa təşkil olunmuş, tədbirdə rayonun ictimai-siyasi həyatında fəallıq göstərən gənclər iştirak etmişlər. Eyni zamanda gənclər günü münasibətilə mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlər həyata keçirilmişdir.

Fevral ayında Qəbələ Dövlət Rəsm Qalereyasının əməkdaşları tərəfindən Qəbələ Konqress Mərkəzində xalq tətbiqi sənətkarlıq əsərlərindən ibarət sərgi təşkil olunmuşdur. Sərgidə ağac-oyma, dulusculuq və xalçaçılıq nümunələri nümayiş etdirilmişdir.

26 fevral-Xocalı soyqırımının 23-cü ildönümü münasibətilə tərtib olunmuş tədbirlər planına əsasən mədəniyyət müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir. Rayon Mədəniyyət Mərkəzində "Xocalı əsrin qətliamıdır" mövzusunda dəyirmi masa təşkil edilmiş, Qəbələ Dövlət Rəsm Qalareyasında Xocalı faciəsini əks etdirən foto-sərgi hazırlanmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin "Bölgələrdən paytaxta" adlı yeni layihəsi çərçivəsində 02 mart tarixində Bakı şəhərində Gənc Tamaşaçılar teatrında Qəbələ günü keçirilmişdir. Tədbirdə Qəbələ rayonunun sosial-iqtisadi inkişafını, zəngin mədəniyyətini, adət-ənənələrini, mətbəx nümunələrini, dekorativ-tətbiqi sənət ustalarının əl işlərini, bölgənin turizm imkanlarını əks etdirən sərgi təşkil olunmuş və Qəbələnin incəsənət ustalarının konserti nümayiş etdirilmişdir.

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə mədəniyyət müəssisələrində müxtəlif maraqlı musiqili proqramlar təşkil olunmuşdur.

Amerkanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Amerikanın "Break of Reality" simli kvarteti Azərbaycana səfərləri çərçivəsində martın 13-də Qəbələ Mədəniyyət Mərkəzində konsert proqramı ilə çıxış etmişdir. Konsert tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Martın 19-da Bakıda Dənizkənarı Milli Parkda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarını özündə əks etdirən guşə təşkil olunmuş, kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilmişdir.

Martın 20-də isə Qəbələ şəhərində Heydər Əliyev parkında Novruz bayramına həsr olunmuş geniş tədbir keçirilmişdir. Tədbirdə meydan tamaşaları göstərilmiş, rayon mədəniyyət mərkəzinin "Çinar" instrumental ansamblı, "Gülbuta" folklor qrupu, Hacıalılı Kənd Yaradıcılıq Evinin "Gülüstan" folklor qrupu, Bum Qəsəbə Yaradıcılıq Evinin "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı, "İncə" rəqs qrupu, incəsənət məktəbinin musiqi kollektivləri yüksək fəallıqla çıxış etmişdir. Qəbələ Dövlət Rəsm Qalereyasının əməkdaşları tərəfindən rəsm əsərləri və xalq tətbiqi sənət nümunələri nümayiş etdirilmişdir.

(Ardı 4-cü səhifədə).